**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**CƏMİL OXTƏKİN OĞLU MƏMMƏDOV**

# MÜASİR TÜRK UŞAQ ŞEİRİ
# (1970-1990-CI ILLƏRDƏ)

5717.01.-Türk xalqları ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Qafqaz Universitetinin "Türk xalqları ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Jalə Fazil qızı Əliyeva**
*Filologiya üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:** **Əsgər Adil oğlu Rəsulov**
*Filologiya üzrə elmlər doktoru, professor*

**Elman Hilal oğlu Quliyev**
*Filologiya üzrə elmlər doktoru, professor*

**Aparıcı təşkilat:** **AMEA, Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu, "Türk filologiyası" şöbəsi**

Müdafiə "_____" ________2013-cü ildə saat "____" da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki D.01.131 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az-1143, Bakı şəhəri, H.Cavid prospekti 31, V mərtəbə, AMEA Nizami adına Ədəbiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" ____________ 2013-cü ildə göndərilmişdir.

Dissertasiya
Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru: **İmamverdi Yavər oğlu Həmidov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsr türk uşaq ədəbiyyatının tədqiqata cəlb etdiyimiz dövrü bu aspektdə xüsusi mərhələ təşkil edir. Ölkədə və dünyada baş verən mürəkkəb ictimai-siyasi və mədəni-ədəbi proseslər uşaq ədəbiyyatına da təsir edir, onun məzmun və forma cəhətdən yeni çalarlarla zənginləşməsinə səbəb olurdu. Bir tərəfdən, siyasi hadisələrin mürəkkəbliyi, digər tərəfdən, ideologiyalar arasındakı qarşılıqlı, eyni zamanda ziddiyyətli münasibətlər bu dövr Türkiyə uşaq ədəbiyyatında, ümumilikdə isə bütün ədəbiyyatda bir çox ədəbi-estetik cərəyanların yaranmasına şərait yaradırdı.

Belə olduğu halda ötən əsrin 70-90-cı illərində qələmə alınan türk uşaq şeirinin mövzu-problem, ideya-məzmun, bədii sənətkarlıq xüsusiyyətlərini araşdırmaq və mənəvi-əxlaqi dəyərləri necə əks etdirdiyini öyrənmək çağdaş Türkiyə ədəbiyyatşünaslığının prioritet və aktual məsələlərindəndir.

Məhz bu dövrdən etibarən türk uşaq şeirində müəyyən dəyişikliklər müşahidə edilməyə başlanmış, qısa zaman kəsiyi ərzində bir çox görkəmli uşaq şairləri yetişmişdir. Poeziyada məzmun yenilikləri ilə yanaşı, yeni şeir şəkillərinin təşəkkül tapması da bu dövrün diqqətçəkən məsələlərindəndir.

Sovet hakimiyyəti illərində siyasi və ictimai əlaqələrdə olduğu qədər ədəbi əlaqələrdə də mövcud qadağalar, maneələr və problemlər Türkiyədə həmin dövrün məhsulu olan ədəbi-bədii irsin təhlili və tədqiqi prosesini çətinləşdirmişdir. Bu səbəbdən də Azərbaycan türkologiyasında dövrün bədii əsərlərinin reallıqları və problemləri əks etdirmə dərəcəsi və ifadəsinin araşdırılması böyük əhəmiyyət daşımaqdadır. Çünki məhz uşaq şeirləri vasitəsilə dövrün sənətkarları yeniyetmələrə müəyyən fikirlərini çatdırmış, zamanın, dövrün reallıqlarını dilə gətirməklə yanaşı, mühitin problemlərini işiqlandırmağı da unutmamışlar. Uşaqlar üçün qələmə alınmış müxtəlif mövzulu şeir nümunələrində bu, özünü aydın şəkildə göstərməkdədir.

1970-1990-cı illər türk uşaq şeirinin araşdırılmasının aktuallığını şərtləndirən digər bir səbəb isə dövrün ədəbi-bədii örnəklərinin yalnız mövzu, məzmun və ideya baxımından deyil, həmçinin bədii-estetik xüsusiyyətləri ilə fərqlənməsi və indiyə qədər öyrənilməməsi ilə bağlıdır.

Bu dövrdə nəşr olunmuş türk uşaq şeir nümunələri yazıldıqları janrın poetik xüsusiyyətlərini özündə əks etdirən, mövzu və ideya etibarı ilə rəngarəng olması ilə yanaşı, həm də estetik dəyər kəsb edən əsərlərdir.

1970-1990-cı illərin türk uşaq şeirində digər ədəbi növ və janrlarda olduğu kimi, dövrün sosial-ictimai və mənəvi-əxlaqi problemləri qaldırılmış, vətənpərvərlik, yurda bağlılıq, qəhrəmanlıq, ailə, təhsil, təbiət sevgisi, əməksevərlik və əxlaqi tərbiyə problemləri daha çox ön plana çəkilmişdir. Bütün bunları nəzərə alaraq, dövrün uşaq şeir nümunələrini müstəqil təhlil obyektinə çevirmək aktual məsələ kimi diqqəti cəlb edir.

**Mövzunun tədqiq səviyyəsi:** İndiyə qədər mövcud olan tədqiqat işlərində, demək olar ki, türk uşaq ədəbiyyatının yalnız müəyyən tarixi dövrləri işlənilmişdir. Məsələn, İsmət Kürün "Türkiyədə dövri uşaq nəşrləri", Zəki Gürəlin "Cümhuriyyət dövrü uşaq ədəbiyyatı", Yasəmən Maqalın "Cümhuriyyət dövrü türk ədəbiyyatında uşaqlar üçün hazırlanan şeir anatologiyaları haqda bir araşdırma (1973-1998)", Səlcuq Çıqlanın "Tənzimatdan günümüzə qədər uşaq ədəbiyyatı və təkliflər", Dilək Cəranın "Hisar şeirində uşaq" kimi tədqiqat işləri Türkiyədə bu sahədəki boşluğu doldurmağa xidmət edən qiymətli əsərlər hesab edilə bilər. Bundan başqa İbrahim Kıbrısın "Tətbiqi uşaq ədəbiyyatı", Ələmdar Yalçın və Qiyasəddin Aytaşın "Uşaq ədəbiyyatı", Tacəddin Şimşəyin "Uşaq ədəbiyyatı", Mustafa Ruhi Şirinin "Uşaq ədəbiyyatı", əsərləri də fundamental tədqiqatlar işləridir.

**Tədqiqatın elmi yeniliyi.** Müasir dövr türk ədəbiyyatı müxtəlif yönlərinə görə bu və ya başqa şəkildə tədqiqat obyektinə çevrilsə də, 1970-1990-illərdə yazılmış uşaq şeiri ətraflı şəkildə nəzəri araşdırmaların mövzusu olmamışdır. Uşaq şeirinin sənətkarlıq xüsusiyyətləri, dil-üslub, ideya-məzmun və mövzu-problematika məsələləri istiqamətində təhlili aparılmamışdır.

Sadəcə 1970-90-cı illər çərçivəsində deyil, həmçinin türk uşaq ədəbiyyatının başlanğıcından, yəni Tənzimat dövründən etibarən bu günə qədər araşdırılan dissertasiyada onun keçdiyi tarixi yola nəzər salınmış, araşdırmaya cəlb etdiyimiz dövrdə bu əsərlərin ədəbi prosesə təsiri vurğulanmış, onların analitik təhlili aparılmışdır.

Tədqiqat işinin elmi yeniliyi ilk növbədə onunla əlaqədardır ki, ilk dəfə olaraq Azərbaycan ədəbiyyatşünaslığında bu mövzu tədqiqata cəlb edilir.

Tədqiqatın elmi yeniliyi eyni zamanda həm də bu illərdə türk uşaq şeirində əks olunan mənəvi-əxlaqi problemlərin, ideya və məfkurənin, ümumilikdə tərbiyə məsələlərinin ilk dəfə nəzəri və praktik istiqamətdə təhlili ilə bağlıdır. Məhz bu cəhətdən dissertant göstərilən dövrə aid türk şeirində əxlaqi, əqli, əməksevərlik, estetik və s. tərbiyə məsələlərinə daha dərindən nəzər yetirmiş, şairlərin uşaqların mənəvi-əxlaqi tərbiyəsindəki,

bədii-estetik zövqünün formalaşmasında və inkişafındakı rolunu qiymətləndirmişdir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini 1970-1990-cı illər Türkiyədə nəşr olunmuş uşaq şeir nümunələri təşkil edir. Eyni zamanda, qarşıya qoyulmuş problemlərlə bağlı mövcud bədii, elmi və tənqidi materiallar da təhlil edilmiş, onlara münasibət bildirilmiş, elmi–nəzəri müddəalar əsasında mülahizələr irəli sürülmüşdür. Bununla yanaşı, həm də dünyada bu sahəyə həsr olunmuş klassik və müasir ədəbi-nəzəri fikir, bədii və elmi ədəbiyyat da tədqiqata cəlb edilmiş, yeri gəldikcə bu qaynaqlardan istifadə edilmişdir. Təhlilə cəlb edilmiş uşaq şairlərinin (Fazil Hüsnü Dağlarca, Gökxan Akçiçək, Bestami Yazqan, Ayla Çinaroğlu, Mustafa Ruhi Şirin, Coşğun Ertəpınar, Mustafa İlyas Subaşı, Xəlil Soyuer və s.) bədii yaradıcılığı üzərində bəzən daha geniş araşdırmalar aparılmış, konkret nəticələrə gəlinmişdir.

**Tədqiqatın predmeti.** Dissertasiyanın predmeti 70-90-cı illər türk uşaq şeirinin inkişaf istiqamətləri, forma, məzmun, üslub xüsusiyyətləri və onun başlıca bədii-estetik istiqamətidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin yazılmasında əsas məqsəd 1970-1990-cı illərdə Türkiyədə qələmə alınmış uşaq şeirlərinin problemləri, əsas mövzuları, üslubi təmayülləri, yaradıcılıq axtarışları və tərbiyə məsələlərini tədqiq etmək, onları müəyyənləşdirmək və elmi dəyərləndirmə aparmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- 1970-ci illərin əvvəllərindən başlayaraq uşaq şeirində daha intensiv müraciət olunan mövzuları müəyyənləşdirmək, bu mövzuların sənətkarlıq və yaradıcılıq xüsusiyyətlərini, ayrı-ayrı müəlliflərin bu və ya digər mövzu ilə daha çox əlaqəsini və s. aydınlaşdırmaqla, mövzu axtarışlarının istiqamətini və sistemliliyini müəyyənləşdirmək;
- müasir türk uşaq şeirində bu və ya digər dərəcədə özünü göstərən və 1970-ci illərin əvvəllərindən etibarən daha fəal şəkildə ortaya çıxan yeni ideya estetik təmayüllərin formalaşması prosesini izləmək;
- istər yaşlı, istər orta, istərsə də yeni nəsil uşaq şairlərinin 1970-1990-cı illərdəki axtarışlarının istiqamətlərini göstərmək, bu sahədəki fərdi yaradıcılıq üslublarının mövqeyini müəyyən etmək, türk uşaq şeirinin əsas tendensiyalarını ortaya çıxarmaq;
- uşaqlar üçün nəşr olunan jurnallarda uşaq şeir nümunələrinin seçilməsi ilə bağlı mövcud bir sıra dil-üslub və məzmun problemləri üzərində dayanmaq və tövsiyələr vermək;

- müasir türk uşaq şeirinin gələcək perspektivləri ilə bağlı proqnozlar vermək.

**Tədqiqatın metodologiyası və elmi-nəzəri əsasları.** 1970-1990-cı illərdə türk uşaq şeirinin tarixi-müqayisəli təsviri və analitik təhlili tədqiqatın metodoloji əsasını təşkil edir. Təhlil prosesində Azərbaycan, türk və dünya ədəbiyyatşünaslarının araşdırılan problemlə bağlı tədqiqatlarına istinad edilmiş, onlardan bu və ya digər şəkildə bəhrələnilmişdir.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Dissertasiya işi poeziyanın müasir mərhələsini araşdıran tədqiqatçılar, o cümlədən doktorantlar, dissertantlar və başqaları üçün mənbə rolunu oynaya bilər. Tədqiqatın praktik əhəmiyyətini şərtləndirən digər mühüm amil türk uşaq ədəbiyyatı tarixinin yazılmasında onun qaynaq rolunu oynaya bilməsidir. Ədəbiyyat tarixinin müasir mərhələsinin öyrənildiyi indiki dövrdə bu olduqca zəruridir. Bunlarla yanaşı, tədqiqatın nəticələrindən ali məktəblərin humanitar fakültələrindəki ümumi və xüsusi kursların tədrisində istifədə edilə bilər. Dissertasiya filoloqlarla yanaşı, ədəbiyyat tarixçiləri, jurnalistlər, sosioloqlar, filosoflar və başqaları üçün də mənbə rolunu oynaya bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi AMEA-nın Nizami Gəncəvi adına Azərbaycan Milli Ədəbiyyat Muzeyinin nəzdində fəaliyyət göstərən "Ədəbiyyatşünaslıq üzrə Problemlər Şurası"nın Koordinasiya Mərkəzində qeydiyyatdan keçmiş, Qafqaz Universitetinin "Türk xalqları ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın başlıca müddəaları respublika daxili və xarici müxtəlif məcmuə, toplu və jurnallarda çap olunmuş məqalə və tezislərdə, elmi konfranslarda oxunmuş məruzələrdə öz əksini tapmışdır. Mövzu üzrə on dörd məqalə və iki tezis nəşr olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya Azərbaycan Respublikası Prezidenti yanında AKK-nın təlimatına uyğun formada yazılmışdır. Dissertasiya işi "Giriş", üç fəsil, "Nəticə" və "Ədəbiyyat siyahısı"ndan ibarətdir.

## DİSSERTASİYA İŞİNİN MƏZMUNU

Tədqiqat işinin **"Türk uşaq şeirinin inkişaf yolları"** adlanan **birinci fəsli** iki yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsildə** qeyd olunur ki, ədəbiyyatın, incəsənətin, ümumilikdə elm və mədəniyyətin inkişafında ölkədə mövcud olan ictimai-siyasi vəziyyətin rolu danılmazdır. 1960-1990-cı illər Türkiyənin ciddi siyasi-ictimai böhranlarla üzləşdiyi dövrdür. Türkiyədə iqtisadiyyatın sürətli inkişafı eyni zamanda siyasi mühitdə canlanma başlatmış və bu yeni tələblərin meydana gəlməsinə, sosial təbəqələrin fəallaşmasına səbəb olmuşdur.[1] Buna görə digər inkişaf edən cəmiyyətlərdə olduğu kimi bu hadisələr Türkiyədə də müşahidə olunmuşdur. Lakin minilliklər ərzində dövlətçilik ənənələri olan cəmiyyətin birlikdə yaşamaq istəyi və ictimai həmrəylik kimi amillərin varlığı bu cür münaqişə və iğtişaşların ölkədə nisbətən yüngül ötüşməsinə səbəb olmuşdur.

1960-1990-cı illərdə baş verən hərbi qiyam və müdaxilələr (27 May 1960-cı il, 12 mart 1971-ci il, 28 fevral 1997-ci il),[2] [3] 1970-ci illərdə baş verən Kipr hərəkatı[4] hərbçilərin Türkiyə ədəbiyyatında təsirini daha dərindən hiss etdirmişdir. Hərbi qüvvələrin qəbul etmədiyi məsələlərə mümkün qədər toxunulmadığı kimi, ordu, qəhrəmanlıq, qazilik (döyüşlərdə yaralanan əsgər) və s. bu kimi mövzular Türkiyə ədəbiyyatında yetərincə qələmə alınmışdır. Lakin, ordunun ölkədəki proseslərə təsiri ilə yanaşı burada türk millətinin qədim tarixi köklərinin və irisinin də rolu az olmamışdır. Əlbəttə, ölkədə baş verən bu tipli hadisələr nəticəsində meydana gələn ağır və gərgin şəraitdə azad yaradıcılıqdan, məhsuldar ədəbi və elmi fəaliyyətdən bəhs etmək asan deyildir.

Türkiyənin 1970-ci illərdən sonra üzləşdiyi ən böyük problem, daha doğrusu fəlakət PKK-nın (Kürdüstan İşçi Partiyası) həyata keçirdiyi terrorlarla bağlıdır. Bu terror aktları ölkə təhsilindən də yan keçməmişdir. Büdcənin əhəmiyyətli hissəsi terrora qarşı yönəldilmiş, istər terror regionlarında, istərsə də digər bölgələrdə insanlara dəyən maddi və mənəvi ziyan onların maariflənməsində nəzərəçarpacaq problemlər meydana gətirmişdir. Bu problemlər ədəbiyyatda şəhidlik, qazilik və qəhrəmanlıq kimi mövzulara yer verilməsini ön plana çəkməklə yanaşı, bir sıra ədiblərin xalqların, millətlərin qardaşlığına, birliyinə, sülhə və sabitliyə səsləyən fikirlərə və mövzulara müraciət etməsinə səbəb olmuşdur.

---

[1] http://www.ait.hacettepe.edu.tr/egitim/ait203204/II11.pdf

[2] Kürkçüoğlu Ö., Sabuncu. Y., Akşin S., Suğur N., Yurdusev A. N., Yurdusev E. Ed.: Güneş İ. Dünya'nın ve Türkiye'nin Yakın Tarihi, T.C. Anadolu Üniversitesi Yay., Eskişehir, 1998, s. 125.

[3] E.ə. s. 125.

[4] E.ə. s.130.

1960-1990-cı illərdə ictimai-siyasi və mədəni proseslər kimi ədəbi mühitdə də inkişaf bir çox istiqamətlərdə özünü büruzə verir. 1970-1990-cı illər türk ədəbi mühitində bir sıra müsbət yeniliklər gedir. Xüsusi ilə bu illərdə poeziyanın inkişafına bir sıra şairlər qiymətli töhfələrini vermişlər.[5]

**İkinci yarımfəsildə** uşaq şeirində Tənzimatdan başlayan inkişafın çağdaş dövrə qədər olan mərhələləri üzərində dayanılmışdır.

Türkiyədə uşaq ədəbiyyatının inkişafı dünyadakı uşaq ədəbiyyatının inkişafı ilə üzvi surətdə bağlıdır. Müstəqil türk uşaq ədəbiyyatının inkişafında klassik irslə yanaşı, Avropa ədəbiyyatının da böyük rolu var. Türk uşaq ədəbiyyatının başlanğıcı 1839-cu ilə, yəni Tənzimat dövrünə gedib çıxmaqdadır.[6]

1923-cü ildə Türkiyə Cümhuriyyəti elan edildikdən sonra dövlətin təhsil sistemində yeni tələblərə uyğun uşaq əsərlərinin yazılması, digər xalqların dillərindən uşaq ədəbiyyatı nümunələrinin tərcüməsi böyük əhəmiyyət kəsb etmişdir. Həmçinin bu illərdəki əlifba islahatından sonra Türkiyədə kitablar latın qrafikasında təkrar nəşr edilmişdir. Cümhuriyyətin ilk illərindən etibarən uşaq ədəbiyyatı ilə bağlı çoxsaylı müzakirələr və tədqiqatlar aparılmasa da, uşaqları nəzərə alan nağıl, şeir, hekayə və roman janrlarında əsərlərin nəşri 1930-cu ildən sonra əhəmiyyətli dərəcədə artmışdır.[7]

1970-ci illərə qədər Türkiyədə uşaq şair və yazıçılarına rast gəlmək çətindir. Mövcud uşaq əsərləri daha çox böyüklər üçün yazan ədiblər tərəfindən yazılmışdır. Bu problemin əsas səbəblərindən biri də son dövrlərə qədər uşaq ədəbiyyatı sahəsində aparılan mübahisələrdir. Çünki bəzi yazıçı, şair və sənət adamları (Tomris Uyar, Camal Sürəyya, Yaşar Kamal, Ayla Qutlu, İnci Enginün) ədəbiyyatın belə bir qolunun olmadığını iddia etmişdir.[8] Onlara görə ədəbiyyat bir bütövdür və parçalana bilməz, sadəcə oxucu kütləsi üçün fərqlər qoyula bilər. Bununla yanaşı, bir sıra mütəxəssislər isə belə bir ədəbiyyatın mövcudluğunu qəbul etmişlər. Bu gün Türkiyədə belə mübahisələrə son qoyulmuş və uşaq ədəbiyyatı ümumən ədəbiyyatın müstəqil bir qolu kimi qəbul edilmişdir.

---

[5] İleri C. Çağdaş Türk edebiyatı, Anadolu Universitesi Yay., Eskişehir, 1998, s. 107-111.

[6] http://www.turkceciler.com/cocuk_edebiyati.html

[7] Çıkla S. Tanzimatdan günümüze çocuk edebiyatı ve öneriler. Hece dergisi, sayı 104-105, Çocuk Edebiyatı özel sayısı, Ağustos-Eylül, Ankara, 2005, s.89-107, s. 98.

[8] Məmmədov C. O. Cümhuriyyət dövrü Türkiyə uşaq ədəbiyyatı ilə bağlı mübahisələr // Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, №3, Bakı, Mütərcim, 2012, s. 127-128.

XX əsrin nəzərdən keçirdiyimiz illərindəki çətinliklərə baxmayaraq, enişli-yoxuşlu yollardan keçən türk uşaq ədəbiyyatında 1960-ci illərin sonu 1970-ci illərin əvvəllərindən daha böyük canlanma baş vermişdir. Bir qədər dəqiq demiş olsaq, uşaq kitablarındakı inkişaf Türkiyədə 1966-cı ildən başlayaraq artmış, 1970-ci illərdən isə uşaq ədəbiyyatı Türkiyədə yüksəliş yoluna qədəm qoymuş, xarici dillərdən türk dilinə tərcümələr çoxalmışdır.[9] Bu illərdə bir çox şair və yazıçılar uşaq ədəbiyyatını daha əhəmiyyətli hesab edib, hekayə, roman, şeir və s. janrlarda əsərlər yazmağa başlamışlar. Bununla belə olduqca az sayda şair və yazıçı bu sahədə müvəffəqiyyət qazana bilmişdir.

1970-ci illərdən sonra Ucal Feyzioğlu, Gülçin Alpögə, Abbas Cılqa, Gültən Dayıoğlu, Fateh Ərdoğan, Can Göknil, Üzeyir Gündüz, Müzəffər İzgü, Veysəl Çolaq, Ünvər Oral, Hüseyn Əmin Öztürk, Mustafa Ruhi Şirin, Səpil Ural, Yalvaç Ural, İsmayıl Uyaroğlu, Cahid Zərifoğlu, Mövlana İdris Zəngin, Behiç Ak, Əli Akbaş, Ayla Çinaroğlu, Rıfat Ilqaz, Adnan Özyalçınər, Bestami Yazgan kimi sıralarında müəllimlərin də olduğu bir çox şair və yazıçılar uşaq ədəbiyyatının dəyərli nümunələrini yaratmışlar. Son dövrlərdə bu sahədə əsərlər qələmə alan şair və yazıçıların bir çoxunun ən mühüm cəhəti onların bu sahədə mütəxəssis olmalarıdır.

Bu illərdə Türkiyədə uşaq ədəbiyyatının vüsət alması, sənətkar və sənətin cümhuriyyət dövründə yetərincə dəyərləndirilməsi[10] bu sahənin də inkişafına müsbət təsir göstərmişdir. Bunlarla yanaşı, UNESCO-nun 1979-cu ili "Dünya uşaq ili" elan etməsi Türkiyədə uşaq ədəbiyyatına maraq və qayğınının artmasına səbəb olmuşdur. Elə bu ildən etibarən uşaq ədəbiyyatında daha böyük canlanma müşahidə olunur.

Bu illərdə qələmə alınan şeirləri əvvəlki illərdə yazılanlardan ayıran başlıca xüsusiyyət onların uşaqların psixologiyasına, yaş xarakteristikasına daha uyğun olmasıdır. Sənətkarlıq baxımından bu illərdə yazılmış zəif əsərlərin də mövcud olmasına baxmayaraq, əsasən uğurlu əsərlərin olduğunu vurğulamaq daha düzgün olardı. Bu dövrdə yazılan şeirlərin digər bir başlıca xüsusiyyətlərindən biri də onların məzmununda pedaqoji məsələlərə diqqət yetirilməsi və tərbiyəvi mövzulara üstünlük verilməsidir. Qeyd olunanlarla yanaşı, şeirlərdə toxunulan mövzular nəinki kəmiyyət baxımından, həm də keyfiyyət etibarı ilə fərqlənmiş, rəngarəngliyi ilə seçilmişdir.

---

[9] http://www.turkceciler.com/cocuk_edebiyati.html
[10] http://www.turkceciler.com/cocuk_edebiyati.html

Tədqiqat işinin **“1970-1990-cı illər türk uşaq şeirində etnik-milli və mənəvi-əxlaqi dəyərlər və ətraf aləmə münasibətin inikası”** adlanan **ikinci fəsli** dörd yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsildə** uşaq ədəbiyyatının tərbiyə vasitəsi kimi əhəmiyyəti vurğulanmışdır. Mənşə etibarı ilə ədəb sözündən götürülmüş ədəbiyyat uşaqların ədəb və əxlaq tərbiyəsində ən qiymətli vasitədir. Uşaqlar həyatı tanımaq, ana dilini öyrənmək, bilik və təcrübə əldə etmək üçün ədəbiyyata daha böyük ehtiyac duyurlar. Ədəbiyyat vasitəsi ilə ətrafda baş verən hadisələri başa düşüb təhlil edən uşaqlar bu yolla, həm də özlərini də tanımaq, dərk etmək imkanı əldə edirlər.

Uşaqların maraq və ehtiyaclarını nəzərə alaraq qələmə alınmış uşaq ədəbiyyatı nümunələri uşağın hərtərəfli inkişafına müsbət təsir edərkən, həm də ona yüksək estetik zövq də aşılayır. Gözəl və uğurlu uşaq ədəbiyyatı nümunələri həyatın ilk illərindən uşaqda ana dilinə məhəbbət oyatdığı kimi, həm də onun bir şəxsiyyət kimi formalaşmasında və sosiallaşmasında mühüm rol oynayır. Uşaqlar üçün maraqlı olan əsərlər onlarda kitablara sevgi oyadır. Oxumağı öyrəndikdən sonra ədəbiyyatı, kitabları sevən uşaqlarda mütaliə vərdişləri digərlərinə nisbətən daha tez yaranır və davamlı olur.

Bu aspektdə ən mühüm məsələlərdən biri də mövcud bədii əsərlərin oxucu kütləsi tərəfindən düzgun seçilməsidir. Bir sıra hallarda əsər hər nə qədər uğurlu olsa da, ünvanlandığı oxucu kütləsi baxımından uğursuz sayıla bilər. Xüsusən uşaqlara ünvanlanmış əsərlərin sevilərək oxunması üçün onların uşaq ədəbiyyatının əksər xüsusiyyətlərini özündə daşıması vacibdir. Uşağın əqli, hissi, sosial, fiziki və s. inkişaf xüsusiyyətləri uşaq ədəbiyyatının da xüsusiyyətlərini, əhatə dairəsini və məzmununu təyin edir. Bu səbəblə də əvvəlcə uşaq, sonra da uşaq ədəbiyyatı və uşaq şeiri məhfumundan bəhs etmək lazımdır.

Azərbaycan və Türkiyə ədəbiyyatlarında uşaq anlayışının müxtəlif səciyyəsi mövcuddur. Lakin buna baxmayaraq, demək olar ki, əksər mütəxəssislər ümumilikdə uşaqlarla bağlı həmfikirdirlər. Uşaq deyərkən, əsasən dünyaya yenicə göz açan körpədən tutmuş, hələ yetkinlik dövrünə çatmamış, 16-17 yaşa qədər qız və ya oğlan nəzərdə tutulur.[11] [12] [13] Burada

---

[11] Xəlil Z., Əsgərli F. Uşaq ədəbiyyatı, Dərslik, Bakı, ADPU􀂶nun nəşr., 2007, s. 9.
[12] Kıbrıs İ. Uygulamalı Çocuk Edebiyatı, Eylül Kitap ve Yay., Ankara, 2002, s. 2.
[13] Kutlu A.“Bir Çocuk Kitabı Masalı”, Ana Dili Eğitimi ve Çocuk Kitapları Sempozyumu, 20-21 Şubat 1997. Ankara, AÜ TÖMER Yay., 2001, s. 12.

ümumi fikir sadəcə yaş həddində deyil, həmçinin onların xüsusiyyətlərində də özününü biruzə verir.

Şübhəsiz ki, uşaqlar, cəmiyyətdə təhsilə və tərbiyəyə, öyrədilməyə ən çox ehtiyacı olan, ən uyğun varlıqdır. Ədəbiyyatın dərin məzmunlu didaktik nümunələrinin uşaqların təlim və tərbiyəsində rolu və yeri kifayət qədər relyeflidir.

Qara Namazova görə, "uşaq ədəbiyyatı–ədəbiyyatın tərkib hissəsi olub, məqsəd və vəzifəsinə görə 17 yaşına qədər müxtəlif oxuyucu qruplarının təlim, təhsil və əxlaqi-estetik tərbiyəsinə yönəldilən bədii əsərlərə deyilir."[14] Müasir türk uşaq ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan Mustafa Ruhi Şirin uşaq ədəbiyyatının tərifini verərkən qeyd edir ki, bu əsərlər uşaqların böyümə və inkişaflarına, xəyal, duyğu, düşüncə və həssaslıqlarına, zövqlərinə, öyrədilərkən əylənmələrinə kömək etmək məqsədi ilə hazırlanan bir ədəbiyyatdır.[15] Uşaq dünyasına istiqamətlənən bu tipli ədəbi nümunələr onların ahəngdar inkişafında və şəxsiyyətinin düzgün formalaşmasında əhəmiyyətli rolu olan, həmçinin sənət baxımından da qiymətli əsərlərdir.

**İkinci yarımfəsildə** uşaq ədəbiyyatının mənəvi-əxlaqi dəyərlərin formalaşmasına təsirindən bəhs edilir.

İnsanlara əxlaqi dəyərləri aşılamaq üçün ən əlverişli və mühim dövr uşaqlıq dövrüdür. Uşaq nə qədər kiçik olarsa, onun davranış və hisslərini adət və vərdişlər əsasında formalaşdırmaq imkanları daha çox olur. Bu səbəblə də uşağı məqsədyönlü formalaşdırmaq və düzgün tərbiyə istiqamətlərinə yönətməklə daha uğurlu nəticələr əldə etmək mümkündür.

Uşaq ədəbiyyatı nümunələrində qoyulan tərbiyə məsələləri çox vaxt dolayısı ilə uşaqlara istiqamətləndiyi üçün uşaqların onları qəbul etməsi də daha asan ola bilər. Məlumdur ki, uşaqlara verilən birbaşa nəsihətlər onlar üçün çox vaxt xoşagəlməz və təsirsiz olur. Lakin sevilərək, ümumiyyətlə əyləncə məqsədi ilə oxunan uşaq əsərləri azyaşlıların tərbiyəsində güclü və müsbət təsirə malik ola bilir. Ədəbiyyatın bu tərbiyəvi gücü uşaq şeirlərində də özünü göstərir. Uşaq şeirlərinin tərbiyəvi xüsusiyyətlərini 1970-1990-cı illərdə Türkiyədə qələmə alınan uşaq şeirlərində daha yaxşı müşahidə etmək mümkündür. Bu dövrün şairləri uşaqlara əxlaq keyfiyyətləri aşılayan olduqca ibrətamiz şeirlər yazmışlar. 1970-1990-cı illər türk uşaq şeirlərində ləyaqət, mərhəmət, vətənə məhəbbət, düzlük, dostluq, sadəlik və təvazökarlıq, səbrli olma,

[14] Namazov Q. A. Azərbaycan Uşaq ədəbiyyatı, Bakı, Bakı Üniv. nəşr., 2007, s. 4.
[15] Şirin M. R. 99 Soruda Çocuk Edebiyatı, Çocuk Vakfı Yay., İstanbul, 2000, s. 9.

əməksevərlik, humanizm, ailəyə məhəbbət kimi əxlaqi keyfiyyətləri aşılayan çoxsaylı nümunələr mövcuddur.

Millətin varlığı, dili, xarakteri, adət və ənənələri, psixologiyası, mədəniyyəti, mənəviyyatı və s. özündə birləşdirən milli mənlik şüuru, milli özünütəsdiq və özünüdərkdir. Milli mənlik şüurunun uşaqlara aşılanması nəticəsində onların vətən, xalq, millət və cəmiyyətlə əlaqəsinin sosial mexanizmi yaranır. Əhməd Fərhan Oğuzkan şeirin vətən, millət və ana dili sevgisini aşılama gücünü belə ifadə edir: "Gözəllik, xeyirxahlıq və humanist duyğular ilə uşağa vətən və millət sevgisi aşılamaqda şeirin təsiri olduqca əhəmiyyətlidir. Doğma ana dilinin zənginliyini tanıtmaq və onu sevdirmək, bir duyğu, düşüncə və təəssüratın ədəbi şəkildə necə izah edilə biləcəyini öyrətmək yönündən də şeirin uşaqların tərbiyəsində böyük bir funksiyası vardır."[16]

**Üçüncü yarımfəsildə** dövrün uşaqlara həsr olunmuş poetik örnəklərindəki ailə, müəllim, məktəb sevgisi və gigiyenik normalara münasibət mövzusu işlənmişdir.

Ailənin uşaqların tərbiyə edilməsində, sosiallaşmasında, bir şəxsiyyət kimi formalaşmasında, qayğısına qalınmasında, əməyə, zəhmətə öyrədilməsində və demokratik cəmiyyətin ləyaqətli üzvləri kimi böyüdülməsində əvəzsiz rolu vardır. Bütün bunlar göstərir ki, uşaqlar yaşadığı cəmiyyətin adət və ənənələrini, maddi və mənəvi ehtiyaclarını bütün mədəni və dini dəyərlərini və irsini ilk olaraq ailədən alırlar. Həyatla bağlı ilk məlumatları və təcrübələri də uşaqlar ailəsindən öyrənirlər. Elə buna görə də ailə uşaqların ruhən yetkinləşməsində, əqli inkişafında, milli və dini duyğularla zənginləşməsində əhəmiyyətli rola malikdir.

Məhz elə buna görə də uşaq şeirlərində ailənin əhəmiyyəti yetərincə vurğulanmalı, insanın səadətində, xoşbəxtliyində və müvəffəqiyyətində onun rolu adekvat olaraq göstərilməlidir. Aşağıdakı nümunəni bu baxımdan göstərə bilərik:

*Talih kuşum olsada*
*Başımda altın tacım,*
*Can babam gül annemin*
*Şefkatine muhtacım.* [17]

Bildiyimiz kimi, elm və bilik sahibi olmağın yolu təlim və təhsildən keçir. Təlim və təhsilin planlı, sistemli və şüurlu olaraq verildiyi

---

[16] Oğuzkan A. F. Yerli ve Yabancı Yazarlardan Örneklerle Çocuk Edebiyatı, Emel Matbaacılık, Ankara, 1987, s. 212.
[17] Yazgan B., Çocuk Şiirleri, Türkiye Diyanet Vakfı Yay., Ankara, 2010, s. 24-25.

və aşılandığı məkan isə məktəbdir. Gələcəyini bu gündən düşünən xalqlar və cəmiyyətlər məktəbin mühüm əhəmiyyətini dərk etmək məcburiyyətindədirlər. Bunun üçün də məktəblər hələ lap kiçik yaşlardan uşaqlara sevdirilməlidir. Uşaqlar məktəbləri darıxdırıcı və cansıxıcı yerlər kimi tanımamalı, daim ona qovuşmağa can atmalıdırlar. Dövrün şairləri təhsilin və təhsil ocaqlarının əhəmiyyətini əsərlərində vurğulayaraq, onları uşaqlara sevdirməyə çalışmışlar.

Dövrün türk uşaq şeir nümunələri bir daha sübut edir ki, kiçik yaşlıların gigiyenik normalara riayət etmələrinə də diqqət yetirilməsi nəzərdən qaçılmamalıdır. Doğrudan da, uşaqlara aşılanan əməksevərlik, vətənpərvərlik, yoldaşlıq, dostluq, səxavətlilik kimi yüksək humanist hisslərlə yanaşı, süfrə arxasında oturub yeyib-içmələri, yuyunmaları, geyinmələri, məktəbə getmələri ilə bağlı məsələlərə də fikir verməli, məsuliyyətlə yanaşmalıdırlar. Çünki uşaqların sağlam böyüməsi və firavan yaşaması üçün gigiyenik normalara riayət etməyin əhəmiyyəti olduqca böyükdür.

Nümunə kimi müraciət olunan parçalarda təhlilə cəlb etdiyimiz dövrdə yazıb-yaradan türk şairlərinin uşaq ədəbiyyatı örnəkləri vasitəsilə ailə, ata, ana, nənə, baba, müəllim, məktəb sevgisini aşılamaları, poetik dəyər və gigiyena qaydalarını öyrətmələri uşaqların mənəvi-əxlaqi baxışlarının, hiss və duyğularının formalaşmasında müsbət rol oynamışdır.

**Dördüncü yarımfəsil** "Türk uşaq şerində təbiət obrazı" adlanır.

Təbiətə və ətraf mühitə sevginin uşaqlarda lap kiçik yaşlardan aşılanması böyük əhəmiyyət daşıyır. Belə ki, insan doğulandan ölənə qədər ətraf mühitlə daim əlaqədədir. Ətraf mühitin qorunması insan həyatının qorunması deməkdır. Əlbəttə, kiçik yaşlardan uşaqlara ekoloji tərbiyənin verilməsi onların ətraf mühitə şüurlu diqqət və qayğısını formalaşdırmağa yardımçı olur, sonradan bunu davranışlarında əks etdirir. Son illərdə Türkiyə cəmiyyətində ətraf mühitə və təbiətə olan diqqətin və qayğının artırılması özünü, demək olar ki, cəmiyyətin bütün təbəqələrində göstərir. Elə buna görə də ətraf mühitə qayğı və diqqət türk uşaq şeirində də öz əksini layiqincə tapmışdır.

Türk uşaq poeziyasında fəsillərlə bağlı şeirlər də diqqəti cəlb edir. Fəsillər bəzən təşbeh kimi bədii ifadə vasitələrinin köməyi ilə təsvir edilir və belə şeirlər nəsihətamiz xarakter daşıyır. Onların vasitəsilə uşaqlara müəyyən məsələlər izah edilir, bir sıra nəticələr əldə edilir. Məsələn, fəsillərə öz poetik nümunələrini həsr edən şairlər bəzən də insan həyatını fəsillərlə müqayisə etmişlər. Əslində mücərrəd məsələləri qavramaqda, dərk etməkdə çətinlik çəkən uşaqlar üçün bu olduqca effektiv vasitə ola

bilər. Çünki mücərrəd məsələlər bənzətmə və təşbehlərin vasitəsilə daha anlaşıqlı yolla izah edilə bilir.

Uşaqlarda təbiət sevgisi və estetik zövqün formalaşması qədər əhəmiyyətli olan digər bir məsələ uşağın ətraf mühitə uyğun böyüməsi, sağlam, ahəngdar və düzgün inkişaf etməsidir. Məhz bunu da uşaqların fiziki tərbiyəsi ilə təmin etmək mümkündür. Əlbəttə, fiziki inkişafdan geri qalmış, xəstə, qüsurlu və s. problemlərlə üzləşən uşaqların digər məsələlərdə tərbiyəsi heç də asan olmur. Bunun üçün kiçik yaşlardan uşaq şeirləri vasitəsilə onlara idmanı sevmək, sağlamlığın qədrini bilmək, təmizliyə riayət etmək kimi müsbət keyfiyyətlərin aşılanması böyük əhəmiyyət daşıyır.

Tədqiqat işinin **"1970-1990-cı illər türk uşaq şeirinin sənətkarlıq xüsusiyyətləri"** adlanan üçüncü fəsli dörd yarımfəsildən ibarətdir.

**Birinci yarımfəsildə** müasir türk uşaq şeirinin mövzu-ideya və məzmun-forma səciyyəsi işlənmişdir.

1970-1990-cı illərdə Türkiyə siyasi-ictimai və ədəbi mədəni mühitində fəaliyyət göstərən uşaq şairləri dövrün aktual problemlərini nəzərə almaqla fərqli və rəngarəng mövzulara müraciət etmişlər. Ədiblərin ideya-siyasi cəhətdən seçib əsərlərində işıqlandırdıqları həyat hadisələri əslində Türkiyə cəmiyyətini yaxından maraqlandıran əhəmiyyətli mövzulardır. Bu illərdə "uşaqlar üçün", "uşaqlara görə", yaxud da "uşaq həssaslığıyla" adı altında qələmə alınmış müasir türk uşaq şeirində qarşılaşdığımız üç başlıca əhəmiyyətli xüsusiyyət özünü büruzə verir.[18] Əslində bu xüsusiyyətlərin ayrı-ayrılıqda işlənməsi uşaq şeirinin mövzu, məzmun və forma cəhətdən uğurlu olmasına şərait yaratmır. Əlbəttə, bu üç xüsusiyyətin vəhdətdə olduğu şeir nümunələri də bu dövrün poeziyasında az deyildir.

Bu illərdə ədiblərin uşaq şeirlərindəki mövzuların seçilməsi ilə bağlı fikir və meyarları dövrün poeziyasının uğurlu inikişafına təkan vermişdir. Bu kimi fikir və meyarlar uşaq şeirlərinin uşaqlara gözəli və faydalı olanı öyrətmə məqsədini qarşıya qoymuş, bununla yanaşı şeirlərin mövzu xüsusiyyətləri uşaqlar tərəfindən rahatlıqla qavranılaraq başa düşülməsini tələb etmişdir.

1970-1990-cı illərin türk uşaq şeirində mənəvi-əxlaqi münasibətlər, təbiət mövzuları, vətənpərvərlik kimi üç mövzu ətrafında cəmləşən zəngin bir lirika mövcud olmuşdur. Türk millətinin tarixi xronologiyasını əks

[18] Makal Y. Cumhuriyet dönemi türk edebiyatında çocuklar için hazırlanan şiir antolojileri üzerinde bir araştırma (1973-1998), Pamukkale U. Denizli, 2007, s. 15.

etdirən, milli vətənpərvərlik duyğularını oyandıran, azadlıq hisslərini alovlandıran və XX əsr uşaq şeirlərində aparıcı rola malik olan vətənpərvərlik mövzusundakı sənətkarlıq axtarışları bu illərdə intensiv şəkildə davam etməklə, daha çox diqqəti cəlb edir. Vətənpərvərlik mövzusunda qələmə alınmış onlarla, yüzlərlə uğurlu uşaq şeiri sadəcə məzmun-mündəricə cəhətdən aktual olması ilə diqqəti cəlb etmir, eyni zamanda, uşaqların yüksək bədii zövqdə tərbiyə olunmasına və gənc nəslin sağlam estetik dünyagörüşünün formalaşmasına xidmət edir.

Cümhuriyyətin fərqli dövrlərində olduğu kimi, 1970-1990-cı illərdə də Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün həyatından, fəaliyyətindən və qəhrəmanlıqlarından bəhs edən çoxsaylı şeirlər qələmə alınmışdır. Şeirlərin yazılmasından məqsəd uşaqlara Atatürkün tanıdılması və sevdirilməsi kimi, həm də Cümhuriyyət tarixində "Atatürk inqilabları" deyə adlandırılan islahatı mənimsəyəcək və qoruyacaq bir nəslin hazırlanması diqqət mərkəzindədir.

*Sen Anıttepe'de değil, MUSTAFA KEMAL*
*Bir ulusun yüreğinde yatarsın.*
*Bir şimseksin karabulutları yırtan*
*Bir güneşsin yeryüzüne doğarsın…*[19]

1970-1990-cı illərin uşaqlar üçün yazan şairləri əsərlərində uşaqlıq dövrünü və bu dövrə aid olan həsrəti də dilə gətirmişlər. Məsələn, Ənvər Ərcan 1994-cü ildə nəşr etdirdiyi "XX əsrdə uşaqlara şeirlər" adlı antologiyasında uşaq üçün şeirlərdən daha çox uşaq və uşaqlıq dövrünə həsrət kimi mövzuda yazılmış şeirlərə üstünlük vermişdir. Bu nümunələrdə şairlər uşaqların gözüylə sanki öz dünyalarını, xəyallarını və problemlərini müşahidə etmişdir.

Bu dövrün uşaq ədəbiyyatında dini mövzulu şeirlərə də müəyyən qədər yer ayrılmışdır. Bəzi şairlər türk uşaqlarını inamsızlıq boşluğuna düşməkdən qorumaq və ilkin dini məlumatları vermək məqsədi ilə şeirlərində dini mövzulara da müraciət etmişlər. Məsələn, Fazil Hüsnü Dağlarcanın və Səzai Qaraqoçun şeirlərində Allah, Quran, müqəddəs kitab, dua kimi məfhumlardan daha tez-tez bəhs edilmişdir.

1970-1990-cı illərdə baş vermiş müharibələr və bu müharibələrdə uşaqların gördükləri zülm, kədər və yaşadıqları itkilər, heç şübhəsiz ki, dövrün uşaq ədəbiyyatının diqqətindən kənarda qala bilməzdi. Bu şeirlərdə müharibə, onun əzab-əziyyətləri, uşaqların günahsızlığı, ağrı-acıları, düçar olduqları faciələr əks etdirilmişdir. Müharibənin dəhşətindən və xüsusi ilə

---

[19] Şentürk A. T. Gazi Mustafa Kemal Atatürk, 1. bs., Ankara, 1988, s. 15.

uşaqlara olan mənfi təsirlərindən Ataol Bəhramoğlunun "Körpələrin xalqı yox", Oqtay Rıfatın "Polşalı uşaqlar", Mətin Önal Məngüşoğlunun "Fələstinli uşaqlar", Gökxan Akçiçəyin "Halepçəli körpə", Əhməd Yalçınqayanın "Bosniyalı uşaq gözləri", Həsən Nail Canatın "Ərik ağacı dastanı" kimi şeirləri bəhs edir.

Ədəbiyyat gündəminə fərqli şəkillərdə, çeşidli özəllikləri və simaları ilə gələn uşaqlar türk şeirinin sənətkarlıq xüsusiyyətlərinin formalaşmasına da nəzərəçarpacaq təsir göstərmişlər.

**İkinci yarımfəsildə** dövrün uşaq şeirində vəzn, qafiyə, ritm, intonasiya və harmoniya məsələləri təhlil olunmuşdur.

Şeir düşüncələrin və hisslərin nizamlı və ölçülü bir dillə, həyəcanverici bir şəkildə ifadəedilmə sənətidir. Bəlkə də, bu xüsusiyyət onu uşaq ədəbiyyatında ən məhsuldar və zəngin bir janra çevirərək əhəmiyyətini artırır.

Şeirdə qafiyə mühüm əhəmiyyət daşıyan elementlərdəndir. Məlum olduğu kimi, Şərq ədəbiyyatının ən aparıcı növü poeziya olmuş, şeir nəzm ilə sinonim söz kimi işlənmişdir. Doğrudan da, şeir qafiyəsiz, vəznsiz olsaydı, primitiv görünərdi. Qafiyə ilə vəzn birləşərək həm də fikrin duyğuların vəhdətini yaradır. "Şeirin vəzni bir qrup söz səslərinin xoş bir nizam və ahənglə müəyyən qəliblərdə yerləşməsindən əmələ gəlir" [20] - deyən böyük əruzşünas alim prof. Əkrəm Cəfər burada əsas etibarı ilə səs oxşarlığını, misrada, misranı əmələ gətirən sözlərdə səslərin eyniyyətini, ahəngdar düzümünü nəzərdə tuturdu. V.V.Mayakovski şeir, qafiyə və vəzndən danışarkən ritmin şeirin başlıca enerjisi, əsas gücü olduğunu vurğulayaraq nəzm əsərlərində ritmin əhəmiyyətini də qabartmağı unutmurdu.[21]

Şeiri nəsr əsərlərindən ayıran ən başlıca xüsusiyyət onun ahəngli olmasıdır ki, bunu da janr, vəzn, qafiyə, harmoniya və ritm kimi elementlər təmin edir. Eyni zamanda, misraların təkrarı da şeirlərin ahənginə müsbət təsir edir. Uşaqlar istər evdə, istər məktəbdə, istər oxuyarkən, istərsə də əzbərləyərkən ahəngli şeirlərə üstünlük verirlər. Çünki bu cür şeirlərin oxunması və əzbərləməsi asan olduqda onlar uşaqlara daha maraqlı gəlir. Bununla əlaqədar Əhməd Ferhan Oğuzkan yazır: "Bölgüsü, qafiyəsi, daxili

---

[20] Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı, Elm, 1977, s. 21.

[21] Маяковский В.В. Как делать стихи? // Маяковский В.В. Соч. В двую т., т.2. – М., «Правда», 1988, с. 682.

ahəngi ilə qısa şeirlər hər bir uşaqda olan ritm duyğusunu artırır, onun musiqi ehtiyacını ödəyir."[22]

1970-90-cı illərdə Türkiyə uşaq şeirlərində daha çox sərbəst şeirə üstünlük verilmişdir. Heca vəznində yazılan şeirlərin sayı isə olduqca azdır. Heca vəznində yazılmış şeirlərdə daha çox 7, 8, 9, 11 və 14 hecalardan istifadə edilmişdir. 1973-1998-ci illərdə nəşr olunmuş türk uşaq antologiyalarındakı şeirlərin qafiyə xüsusiyyətlərinə nəzər saldıqda şeirlərin böyük əksəriyyətinin abab, müəyyən hissəsinin aabb və olduqca az bir hissəsinin isə abba qafiyə sistemi ilə yazıldığını müşahidə edirik.[23] Bu dövrün uşaq şeirləri janr baxımından tədqiq edilərkən, ümumiyyətlə, onların ikilik və dördlük bəndlərlə yazıldıqları məlum olur. Bu cür şeirlər, uşağın o şeiri oxumasına müsbət təsir edir. Çünki uşaq hissə-hissə yazılmış şeirləri daha rahatlıqla və bezikmədən oxuyur.

**Üçüncü yarımfəsildə** müasir türk uşaq şeirinin dil-üslub xüsusiyyətlərindən bəhs edilir.

Ədəbiyyat uşaqlar üçün hər şeydən əvvəl dildir. Çünki dil uşağın özünü və ətrafını tanımasına, gözəl danışmasına, zövqlərinin inkişafına müsbət təsir edir. Uşaqlar üçün yazılmış şeirlərin dil və üslubu uşaqların xəyal dünyasına canlılıq gətirə biləcək xüsusiyyətlər daşımalıdır. Çünki uşaq dünyasında yaranan həyat coşqusu, sevinc və həyəcanı onda maraq və öyrənmə duyğusunu gücləndirə bilər. Buna görə şeirin sözləri zəngin, mənalı, təsirli, ahəngli, uşağın təfəkkürünə, təxəyyülünə və hissərinə adekvat olmalıdır. Əsasən qəlibləşmiş, quru bənzətmələr və ifadələrdən istifadə edilməməlidir. Müasir türk uşaq şeirinin dili kifayət qədər obrazlı, səmimi və təsirlidir. Lakin buna baxmayaraq, bəzən sadəcə "yazmaq" üçün yazan uşaq şairlərinin qeyri-səmimi və poetik baxımdan yoxsul və bəsit əsərləri bu qaydanı pozur.

Uşaq şairlərinin hər birinin özünəməxsus ifadə tərzini və üslubunu müəyyənləşdirməsi, uşaqların yaş xüsusiyyətlərindən və səviyyəsindən asılı olaraq meydana gələn fərqlər, müxtəlif dövrlərdə uşaq şeirlərinin üslubi imkanları uşaq şeirində, hətta bütün uşaq ədəbiyyatında istifadə olunan üslubiyyata öz təsirini göstərir. Xüsusilə şairin fikrinin ifadə forması və üslubu şeiri sadə nəsrdən fərqləndirən əhəmiyyətli xüsusiyyətlərdən biridir. Suut Kamal Yetkin bu məsələ ilə bağlı fikrini ifadə edərkən şairin sadə sözlərlə içində yaşadığımız dünyaya heç oxşamayan bir dünyanı meydana

---

[22] Oğuzkan A. F. Çocuk Edebiyatı, Ankara, 3. bs., Anı Yay., 2000, s. 213.
[23] Makal Y. Cumhuriyet dönemi türk edebiyatında çocuklar için hazırlanan şiir antolojileri üzerinde bir araştırma (1973-1998), Pamukkale U. Denizli, 2007, s. 7-78.

gətirməyinə təəccüb edir.[24] O, bir şairin müvəffəqiyyətini sözlərə gündəlik mənalarını unutduran həssaslığına və ustalığa bağlayır. Həqiqətən, usta bir şair sadə sözlərlə təsvir etdiyi olduqca fərqli dünyaları xəyallarımızda uğurla canlandıra bilir.

Türkiyədə tanınmış uşaq ədəbiyyatı tədqiqatçılarından olan Zəki Gürələ görə, uşaq ədəbiyyatında bütün əsərlərin dili janrından asılı olmayaraq çox mühüm əhəmiyyət kəsb edir. O, bu məsələni aşağıdakı kimi ifadə edir: "Uşaq ədəbiyyatı sahəsində istifadə ediləcək dil mütləq və mütləq millətin öz milli dili olmalıdır. Uşağın içində böyüdüyü mədəniyyəti yaşayan və yaşadacağı reallığı ilə yanaşı, dilin ən mühüm mədəniyyət daşıyıcısı olduğu həqiqəti də nəzərə alındıqda, uşaq ədəbiyyatında ana dilinin əhəmiyyəti daha yaxşı başa düşüləcəkdir. Dil bizim səs bayrağımızdır və bizim ana yurdumuz ana dilimizdir."[25]

Uşaq şeirləri, sadə, açıq və aydın dildə, uşaqların başa düşmə və yaş səviyyələrinə uyğun olmalı, həmçinin uşağın dil səviyyəsini inkişaf etdirməli, söz ehtiyatını artırmalıdır.[26] Türk uşaq şeirlərini dil və üslub baxımından təhlil etdikdə şeirlərin çoxunun açıq və aydın şəkildə yazıldığının şahidi oluruq. Eyni zamanda, türk uşaq ədəbiyyatındakı şeirlərdə, ümumiyyətlə, cümlə üzvlərinin sırası baxımından düzgün cümlələrə daha çox yer verilmişdir. Bununla belə, elə hallara da rast gəlirik ki, şeirlərdə cümlələrdəki söz sırası pozulmuş, inversiyadan istifadə olunmuşdur.

Bəzi türk uşaq şeirlərində, məna bir, yaxud da iki misrada tamamlanmışdır. Nümunələrə əsaslanaraq, deyə bilərik ki, əslində bu cür qısa şeirlər uşaqların bu nümunələrdə verilən fikirləri daha yaxşı qavramalarına səbəb olmuşdur.

1970-1990-cı illər türk uşaq ədəbiyyatında süjetli uşaq şeirlərinə o qədər də çox rast gəlinmir. Bunun başlıca səbəblərindən biri türk xalq şeirində maraqlı və rəngarəng süjetli şeir nümunələri olmasına baxmayaraq, bu dövrün uşaq ədəbiyyatında bu janra diqqətin az olmasıdır.

Uşaq şeirində üslubun və ifadə tərzinin bu qədər əhəmiyyətli olmasına baxmayaraq, dövrün uşaq şeirində, müəlliflər tərəfindən bəzən quru və bəsit bir dillə yazılmış nümunələrin də şahidi oluruq. Bu isə öz

---

[24] Yetkin S. K. Şiir Üzerine Düşünceler, Varlık Yay., İstanbul, 1969, s. 10.
[25] Gürel Z. İkibine Doğru Çocuk Edebiyatımız, Çocuk Edebiyatı İhtisas Kütüphanesi Yay., Ankara, 2001, s. 3.
[26] Alpay M., Anhegger R. Çocuk Edebiyatı ve Çocuk Kitapları, Cem Yay., İstanbul, 1975, s. 88.

növbəsində kiçikyaşlı uşaqların dil həssaslığına görə böyüklərdən fərqli olmasına, ümumilikdə götürdükdə uşaq dilinin incəliklərinin undulmasına gətirib çıxarır.

**Dördüncü yarımfəsildə** türk şairlərinin uşaq şeirində rəngarəng lirik forma və elementlərdən istifadəsi təhlil edilmişdir.

Müasir türk uşaq şeirində lirik şeir janrlarının rəngarəngliyi özünü kifayət qədər açıq büruzə verir. Bununla belə geniş həcmli şeir-poemalar müasir uşaq ədəbiyyatında olduqca azdır. Buna səbəb dövrün sosial-mənəvi və ictimai-siyasi xarakterli problemləridir. Görünür, mövcud hadisələrin sürətlə dəyişməsi və inkişafı, dövrün dramatizmi iri həcmli əsərlərin yaranmasına imkan verməmişdir. Əslində belə iri çaplı əsərlər uşaqlar üçün o qədər də böyük maraq kəsb etmir.

1970-1990-cı illər türk uşaq şeirində ən çox lirik növdən istifadə olunmuşdur. Uşaq şeirlərində bu növ şeirlərə üstünlük verilməsi uşağın emosional və əqli inkişafına kömək etmək məqsədini güdür. Türk şeirində lirika məhəbbət lirikası, təbiət lirikası, fəlsəfi lirika və s. kimi zəngin ideya-estetik məzmunu ilə aparıcı rol oynamışdır. Çünki duyğuları önə çıxaran və daha coşqulu ifadəyə malik olan lirik şeirlər uşaqların hissi-emosional inkişafına müsbət təsir etməklə olduqca əhəmiyyətlidir.[27] Bu dövrdə bir çox şeir nümunələrinin lirik tərzdə yazılmasının səbəbi müəlliflərin öz uşaqlıq günlərini xatırlamaları və hisslərini ifadə etmələri ilə bağlıdır. Şairlərin bir əşya, yaxud hadisə haqqında keçmişdəki duyğularını əks etdirmələri də digər bir səbəb kimi göstərilə bilər.

Qəhrəmanlıq, vətən sevgisi, inanc və s. kimi mövzuları qələmə alan epik şeirlər türk uşaq poeziyasında lirik şeirlərdən sonra ən çox istifadə olunan şeir növüdür.

Uşaqlara təkcə öyüd-nəsihət verməklə onları təbiətdən təcrid etmək olmaz. Çünki uşaq təbiətlə özü arasında bir əlaqə qurur, hərəkətləri və davranışları ilə ətraf mühitdə baş verən hadisələr arasında müəyyən bir oxşarlıq və paralellik axtarır və görür. Uşaq təfəkkürü üçün təbiət ilə cəmiyyət hadisələri arasında paralellik görülməsi olduqca səciyyəvidir. Bəlkə də, bu səbəblə türk uşaq şeirlərində təbiət ilə cəmiyyət hadisələri arasında paralelliyin qurulması daha çox istifadə olunan forma və üsullardandır.

[27] Makal Y. Cumhuriyet dönemi türk edebiyatında çocuklar için hazırlanan şiir antolojileri üzerinde bir araştırma (1973-1998), Pamukkale U. Denizli, 2007, s. 13.

Türk uşaq ədəbiyyatında mükalimə, dialoq şəklində qurulan şeirlər də az deyildir. Bu şeirlər həcmcə kiçik olmasına baxmayaraq, forma baxımdan sənətkarcasına qələmə alınmışdır.

Uşaqların şeiri tam və dəqiq başa düşməsi və intonasiya ilə oxuya bilmələri üçün durğu işarələri olduqca vacibdir. Durğu işarələri sadəcə şeirin mənası üçün deyil, quruluşu üçün də əhəmiyyətlidir. Oxumağı və yazmağı yenicə öyrənən uşaqların durğu işarələri və eyni zamanda orfoqrafik qaydaları səhv öyrənərək vərdiş halına gətirməməsi üçün uşaq əsərlərində bu qaydalara xüsusi diqqət edilməlidir. Dövrün türk uşaq şeir nümunələrində az da olsa bu nöqsanlarla qarşılaşılır. Əslində bu səhvlərin bir çoxu sənətkarlar bu nümunələri yaradarkən yox, əsərlər nəşr edilərkən baş verir.

**Dissertasiyada aşağıdakı mühüm nəticələr əldə edilmişdir.**

1970-ci illərə qədər Türkiyədə böyük və uğurlu hesab ediləbiləcək uşaq poeziyası nümunələrinə və sadəcə olaraq uşaqlar üçün yazan ədiblərə az rast gəlinir. Uşaq poeziyasındakı bu gecikməni Cümhuriyyətin yeni qurulması və bu dövrdə yaranan çətinliklərlə bağlamaq daha məqsədəuyğundur. Bununla belə buradakı başlıca səbəblərdən biri bu illərə qədər Türkiyədə uşaq ədəbiyyatının müstəqil bir qol kimi qəbul edilməməsi və onunla bağlı aparılan əsassız mübahisələrdir.

Eyni zamanda, Türkiyə ictimai-siyasi və mədəni-mənəvi mühitində yaşanan çoxsaylı problemlər də uşaq ədəbiyyatına təsirsiz ötüşməmişdir. Yaşanmış bu problemləri diqqətlə nəzərdən keçirdikdə türk uşaq ədəbiyyatındakı problemləri daha aydın təsəvvür etmək mümkündür.

Bu problemlərin mövcudluğuna baxmayaraq, türk uşaq ədəbiyyatında, xüsusilə uşaq şeirində 1960-cı illərin sonlarından etibarən sürətli inkişaf başlamış, bu sahəyə diqqət və qayğı nəzərəçarpacaq dərəcədə artmışdır. Dövrün digər bir əhəmiyyətli xüsusiyyəti uşaq şeirinin uşaqların tərbiyəsində oynadığı mühüm rolun və təsirinin ön plana çəkilməsidir. Elə buna görə də uşaqlar üçün yazılan şeirlərin sayı günbəgün artmış, ölkənin maarif və tərbiyə sistemində özünə layiqli yer tutmuşdur.

1970-1990-cı illərin aktual problemlərinə diqqət yetirdikdə müşahidə edilir ki, çeşidli mövzuları oxuculara çatdıran Türkiyə uşaq şairlərinin ideya-siyasi cəhətdən müraciət etdikləri həyat hadisələri əslində türk cəmiyyətini daha yaxından maraqlandıran mövzulardır. Cəmiyyətin və dövrün tələblərini nəzərə alma zərurətini daşıyan türk poeziyası bu illərdə mövzu seçimi baxımından həmin dövrün şəraiti və ədiblərin fikirləri istiqamətində inkişaf etmişdir. Bu illərin şeirlərində vətənpərvərlik,

qəhrəmanlıq, əməksevərlik, dürüstlük, dostluq və s. kimi mənəvi-əxlaqi mövzulara müraciət daha intensiv və aktual olmuşdur. 1970-1990-cı illər türk uşaq şeirində mənəvi-əxlaqi məsələlərin böyük önəm daşıdığı mütləq qeyd edilməlidir. Bu dövrün sənətkarları uşaqlara mənəvi-əxlaqi keyfiyyətləri aşılamaq məqsədilə daha rəngarəng mövzu, forma və məzmuna yer verməyə çalışmışlar. Ədiblər uşaqlara mərhəmət, ailəyə məhəbbət, düzlük, ləyaqət, sadəlik, təvazökarlıq, təmkinli olma, humanizm və s. kimi çoxsaylı müsbət keyfiyyətləri aşılamaq üçün şeirin tərbiyəvi-didaktik imkanlarından da ustalıqla yararlanmışlar.

1970-1990-cı illər türk uşaq şeirinin tədqiqi və təhlili zamanı biz şeir janrlarında rəngarəngliyin kasadlığı, dövrün şairlərinin daha çox sərbəst vəzndə yazılan şeirə üstünlük verməsi, fərqli poetik formalar əvəzinə, daha çox məzmuna müraciət edilmə, forma-poetika və dil-üslub elemenlərinin zəifliyi və s. problemlər ilə qarşılaşırıq. Təhlil zamanı bu da müəyyən edildi ki, müasir dövr şairləri türk uşaq folklorundan heç də bütün hallarda lazımi səviyyədə yararlanmamış, xalq şeirinin sınaqdan çıxmış ifadə üsullarına yetərincə müraciət etməmişlər. Türk uşaq şeirində son illər müasir dünyanın ritmi, intonasiyası, sürəti və s. amilləri də arzu edilən səviyyədə öz əksini tapmamışdır. Bu dövrdə uşaqlara ünvanlanan nümunələrdə müəlliflər bəzən uşaq həssaslığını və incəliyini unutmaqla, quru və bəsit dillə yazılmış şeirləri də kiçik yaşlılara təqdim etməyə çalışmışlar.

Müasir türk uşaq şeirində qarşıya çıxan problemlərdən biri də qələmə alınmış nümunələrdə əksər hallarda uşaqların yaş xüsusiyyətlərinin və səviyyələrinin nəzərə alınmaması, uşaqların zövq alacağı, biliklər əldə edəcəyi forma və məzmundan heç də uğurla istifadə edilməməsidir. Bütün bunlarla yanaşı, son illərdə Türkiyədə uşaq poeziyasına artan maraq və diqqət bu sahədəki inkişafı intensivləşdirmiş, bu isə öz növbəsində dövrün şairləri tərəfindən forma və məzmun baxımından uğurlu əsərlərin ortaya çıxmasına səbəb olmuşdur.

**Dissertasiyanın əsas məzmunu və müddəaları aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. Türk uşaq ədəbiyyatının inkişaf tarixi (1923-1960-cı illərdə) // Qafqaz Universiteti, Journal of Qafqaz, Philology and Pedagogy, №32, Bakı, 2011, s. 134-141.
2. Qloballaşma prosesində uşaq ədəbiyyatının rolu / Bakı Avrasiya Universiteti, Qloballaşma şəraitində humanitar elmlərin aktual problemləri, Respublika elmi-praktik konfransı, Bakı, 15 Mart 2011, s. 276-278.

3. Türk uşaq ədəbiyyatı tarixinin inkişaf yolu // BDU, Dil və Ədəbiyyat, Beynəlxalq elmi-ədəbi jurnal, №1(81), Bakı, 2012, s. 155-157.
4. Türk uşaq ədəbiyyatı 1970-1990-cı illərdə // Sumqayıt Dövlət Universiteti, Elmi xəbərlər, cild 8, №1, Sumqayıt, 2012, s. 58-62.
5. Cümhuriyyət dövrü Türkiyə uşaq ədəbiyyatı ilə bağlı mübahisələr // Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, №3, Bakı, Mütərcim, 2012, s. 127-130.
6. 1970-90-cı illər Türk uşaq şeirində dil-üslub məsələlərinə qısa bir nəzər // AMEA, M. Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, №4, Bakı, "Elm və təhsil", 2012, s. 278-284.
7. Tərcümə uşaq ədəbiyyatı nümunələrinin Türkiyə cəmiyyətinin dünya ilə inteqrasiyasında rolu / Azərbaycan Universiteti, Müasir dünyada inteqrasiya və müqavimət prosesləri, Beynəlxalq konfrans, Bakı, "Elm və təhsil", 9 İyun 2012, s. 398-400.
8. Müasir türk uşaq şeirinin janr xüsusiyyətləri / Qafqaz Universiteti, II beynəlxalq türk xalqları uşaq ədəbiyyatı konqresi, Bakı, 11-13 Oktyabr 2012, s. 7-8.
9. Türk çocuk şiirlerinin eğitsel yönüne kısa bir bakış (1970-1990'lı yılların örnekleri doğrultusunda) // Ege Universitesi, Türkbilim Dergisi, sayı-9, İzmir, Haziran 2012, EÜ Bilkom, s. 67-74
10. Uşaq şeirlərinin xüsusiyyətləri (Məktəbəqədər yaşlı uşaqlar üçün) // ADPU, Pedaqoji Universitet xəbərləri, Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi, №2, Bakı, ADPU, 2012, s. 291-294.
11. Турецкая детская литература Республиканского периода // Киевский национальный университет имени Тараса Шевченко, Научное издание, « Язык и культура », №15, Том VII (161), Киев, 2012, с. 430-436
12. Modern Türk Çocuk Şiirinin Dil ve Üslup Özellikleri // Karabük Universitesi, Tarih Kültür ve Sanat Arastırmaları Dergisi, sayı-2(1), İstanbul, Mart 2013, s. 330-341
13. Mediada uşaqlara ana sevgisi və analara hörmət hissinin aşılan-masında uşaq ədəbiyyatının rolu / Qafqaz Universiteti. Gənc

tədqiqatçıların I beynəlxalq elmi konfransı, Bakı, 26-27 Aprel 2013, s. 623-624.
14. İbtidai sinif müəllimi hazırlığında uşaq şeirlərinin xüsusiyyətlərinin öyrədilməsi / Qafqaz Universiteti, Müəllim hazırlığı siyasəti, Beynəlxalq elmi konfrans, Bakı, 3-4 May 2013, s. 159-161.
15. M. A. Ersoyun “Ferda Kadın” uşaq şeirinin sənətkarlıq xüsusiyyətləri / Qafqaz Universiteti, "Türk dünyasını işıqlandıranlar: Məmməd Akif Ərsoy, Hüseyn Cavid" beynəlxalq konfransı, Bakı, 16-18 May 2013, s. 60-63.
16. Социально-политические вопросы в современных турецких детских стихотворениях (1970-1990-е годы) // Ученые записки Таврического национального университета имени В. И. Вернадского, Научный журнал, Серия «Филология. Социальные коммуникации», Том 26 (65), № 1, ч. 1, Симферополь, 2013, с. 395–399.

**Д. О. Мамедов**

**Современное турецкое стихотворение для детей (1970-1990 гг.)**

## РЕЗЮМЕ

Диссертация посвящена изучению и исследованию проблем детских стихов, написанных турецкими поэтами в 1970-1990 гг.

Она состоит из «Введения», трех глав, «Заключения» и «Списка использованной литературы».

Во вводной части обосновывается актуальность темы, объект, предмет, цели и задачи, научная новизна, делается экскурс к истории исследования, определяется методология, научно-теоретическая база, практическая значимость и т.д.

В первой главе «Пути развития детской поэзии», состоящей из двух подразделов, рассматриваются периоды развития жанра детского стиха, начинающийся с периода Танзимата, а также показаны влияния социально-экономических условий и литературно-эстетических процессов, формирование жанра турецкого детского стиха в 1970-1990 гг.

Во второй главе «Отражение этническо-национальных и нравственно-воспитательных ценностей в турецком детском стихе и их влияния на окружающий мир в 1970-1990 годы», состоящей их четырех подразделов, ставшие своей целью происследовать проблемы морально-нравственных ценностей, нашедших своих применение в турецких поэтов на примерах детских стихов в 1970-1990 годы. В этой главе изучаются и воспитание патриотических чувств, любви к семье, школе, природе, труду, гуманизму и т.д., а также выявляется роль стихов в развитии эстетического вкуса у детей.

В третьей главе «Особенности мастерства в турецком детском стихе в 1970-1990 годы», состоящий из четырех подразделов, анализируются образцы детских стихов в аспекте темы, идеи, структуры и композиции, а также характеризуются в контексте рифмы, ритма, проблемы интонации, изобразительно-выразительных средств языка и т.д.

В «Заключении» обобщены общие результаты исследования, определены дальнейшие перспективы изучения проблемы.

**J.O. Mammadov**

## Contemporary Turkish Children's Poems (1970-1990)

## SUMMARY

The dissertation is dedicated to children's poems written in Turkey in the years 1970-1990.

The work consists of "Introduction", three chapters, "Conclusion" and "References".

Introduction includes the importance of the topic, scientific novelty, aims and purposes, research history, methodology of the research, scientific and theoretical foundations, theoretical and practical importance of the scientific work.

The first chapter entitled "Ways of Development of Turkish Children's Poems" comprises two sub-chapters. The chapter discusses the periods starting from "Tanzimat Period" to the development of contemporary period in children's poems, as well as the impact of socio-economic events and literary-esthetical researches on Turkish children's poems within the years of 1970-1990.

The second chapter entitled "Ethnic-national and Moral Values and Reflection of the Attitude to the Mankind in Turkish Children's Poems in the Years of 1970-1990" consists of four sub-chapters. It deals with the importance of the children's literature as a moral-instructive means and analyzes the moral ideas of the public figures related to children based on the samples of the children's poems including the years of 1970-1990. The chapter studies the indoctrination of patriotism and heroism in children, the reflection of such developmental views as love for family, education, school, nature, industriousness, humanism, etc. and analyzes the role of that period's poetic samples in children's esthetic development.

The third chapter entitled "Artistic Features of the Turkish Children's Poems in the Years of 1970-1990" comprises four sub-chapters. This chapter studies the samples of children's poems of that period from the thematic, ideational, form and content aspects, analyzes the children's poems on contemporary life problems, and characterizes their thematic ideational, form and content peculiarities, rhyme, rhythm, intonation problems, linguistic and stylistic features and other issues.

"The Conclusion" summarizes the ideas, outcomes and statements presented in different chapters, defines the future perspectives of literary studies in this field.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ**

*На правах рукописи*

**МАМЕДОВ ДЖАМИЛЬ ОХТЕКИН оглы**

# СОВРЕМЕННОЕ ТУРЕЦКОЕ СТИХОТВОРЕНИЕ ДЛЯ ДЕТЕЙ (1970-1990 гг.)

5717.01 – Литература тюркских народов

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени

доктора философии по филологии

**БАКУ – 2013**